# Qələm ruhumun bələdçisidir



*(Müsahibimiz yazıçı-publisist Fərruxə Umarovadır)*

**– Gəlin söhbətimizə tanışlıqdan başlayaq. Oxucularımız üçün Fərruxə Umarova özünü necə təqdim edərdi?**

– Sadə bir qələm adamıyam. Bir az da uzağa gedəsi olsam, yaradıcılığa orta məktəb illərindən başlamışam. İlk hekayəm mətbuat səhifəsində tələbəlik illərimdə dərc olunub. Yazıçılığın sirlərinə ustad Qərib Mehdinin rəhbərlik etdiyi “İlham” ədəbi birliyində yiyələnmişəm. Jurnalistliyə də məhz yazıçılıqdan gəlmişəm. Qəzetçilik fəaliyyətim «Zaman» qəzetinin bölgə müxbirliyindən başlayıb. Müxtəlif illərdə «Ekoloji həyat», «Gəncəbasar» qəzetlərində, həmçinin «Ana Kür», «Haray» jurnallarında çalışmışam. Hazırda on beş ildən artıqdır ki, “Gəncənin səsi” qəzetinin müxbiriyəm. Nizami Aydın adına beynəlxalq ədəbi mükafatın laureatı, müddətli Prezident təqaüdçüsüyəm. Mətbuatda səmərəli fəaliyyətə görə AJB-nin müxtəlif diplom və fəxri fərmanlarına layiq görülmüşəm. “Gecədən süzülən dünya”, “Çirkablara yağan yağış”, “Şəhidlərin ömür kitabı”, “Torpaq adam”, “Dəniz ömrü”, “Göylərə uzanan yol”, “Ömürdən ötər illər” kitablarının müəllifi, 20-yə qədər kitabın redaktoruyam. “Çirkablara yağan yağış” povestim əsasında hazırlanmış pyesim Gəncə Dövlət Dram Teatrının səhnəsində Respublikanın əməkdar artisti Rəhilə Məmmədovanın quruluşunda tamaşaya qoyulub.

**– Bildiyimizə görə əvvəllər yazılarınız “Fərruxə Pərişan” imzası ilə çap olunurdu. Amma nədənsə sonralar bu təxəllüsdən imtina etdiniz və Umarova soyadına döndünüz. Səbəb nə idi? Axı “Pərişan” sizə uğur qazandıran bir təxəllüs olmuşdu.**

– Əslində elə bir ciddi səbəb yoxdur. Sadəcə öz adımı və soyadımı çox sevdiyim üçün dəyişmək istəmədim. Düşünsək ki, təxəllüs yüzlərlə addan fərqlənmək üçündür, elə bilirəm validеynlərim məni bu zəhmətə qatlaşmaq əziyyətindən xilas ediblər. Çünki verdikləri ad da, soyad da çoxlarından fərqlənir. Mənə qalan yazılarımın dəyəri ilə seçilməyi bacarmaqdır.

**– Fərruxə xanım, siz həm yazıçılıq, həm də jurnalistlik fəaliyyəti ilə məşğulsunuz. Oxucular imzanızı bəzən bədii, bəzən də publisistik yazılarınızda görür. Özünüzü daha çox hansı janrda rahat hiss edirsiniz?**

– Bəlkə də hər iki janrda desəm təvazökarlıqdan uzaq olar. Amma yazıçılıq mənə daha doğmadır və bu janrın dili ilə danışmaq daha asandır. Deyirlər hansı dildə düşünürsənsə, o dil sənin ana dilindir. Bu mənada yazıçılığı ana dilim hesab edirəm. Hətta bəzən bu dilin publisistik yazılarıma yansıdığı məqamlar da olur. Bu isə onları, oxucuların dili ilə desəm, daha oxunaqlı və maraqlı edir. Amma hansı janr olur-olsun, qələm sadəcə ruhuma bələdçilik edən bir vasitədir.

**– Daha çox kimi və kimləri oxuyursunuz?**

– Gəncədə yaşayıb-yaradan bütün çağdaş yazıçıları oxuyuram. Xüsusən də Qərib Mehdinin, Rəfiqə Sadıqovanın, Nüşabə Əsəd Məmmədlinin, Ümbülbanunun, Fazil Sənanın demək olar ki, bütün əsərlərini oxumuşam. Həm də sevə-sevə. Amma ümumi götürsək, Elçin, Çingiz Aytmatov, Dostoyevski, Kafka, Çek London və s. yazıçıların adını çəkə bilərəm ki, onların əsərlərini hələ də böyük maraqla oxuyuram. Əslində bu suala konkret cavab vermək bir qədər çətindir. Çünki sevdiyim əsərlər haqqında danışmaq daha dəqiq olardı. Məsələn, Viktor Hüqonun “Səfillər”i, Qərib Mehdinin “Sevgi”si, Voyniçin “Ovod”u, Cek Londonun “Martin İden”i, Mustafa Çəmənlinin “Xallı gürzə”si və s. haqqında saatlarla danışmaqdan yorulmaram.

**– Deyirlər yazıçılar əsərlərində özlərini yazırlar, siz özünüzü yazırsınızmı?**

– Bu sözdə böyük həqiqət var. Yazıçı yazdığı hər hansı əsərinə özündən bircə cümlə belə olsa yansıdır və ya yazdıqlarını özününküləşdirir. Mənə elə gilir ki, uğuran çoxdilli açarlarından biri də özünü yazmaq, özünü ifadə etməkdir. Çünki insan öz mətbəxinə hər kəsdən daha çox bələddir. Bizim xalqda “köynəyindən keçirmək” ifadəsi var. Övladı ya sən özün dünyaya gətirirsən, ya da özününkü olmayanı köynəyindən keçirib öz övladın edirsən. Yazıçılıq da belədir, ya öz mətbəxinin məhsulu olmalıdır, ya da görüb duyduqlarını köynəyindən keçirib özününküləşdirməyi bacarmalısan.

**– Şah əsərinizi yazmısınızmı? Əgər yazmısınızsa, o hansı əsərdir?**

– Qəribədir ki, insan qələmi əlinə alanda çox böyük bir işə başladığını zənn edir. Başa çatandan sonra isə hiss edir ki, daha da yaxşı ola bilərdi. Əlbəttə, söhbət yaradıcı insandan gedir. Bu mənada düşünürəm ki, şah əsərim hələ qələmə almadıqlarımdır. Əgər qismətimə belə bir xoşbəxtlik yazılıbsa, nə vaxtsa oxuyarsınız.

**– Xoşbəxtlik haqqında nə deyə bilərsiniz? Özünüzü xoşbəxt sanırsınızmı?**

– Xoşbəxtlik məncə mücərrəd məfhumdur. Bir çox yaşantılar kimi, xoşbəxtliyin də konkret tərifini vermək mümkün deyil. Zövqlər müxtəlif olduğu kimi, xoşbəxtliyə olan münasibət də müxtəlifdir. Mənim üçün xoşbəxtlik kimi görünən bir nəsnə başqa birisi üçün əhəmiyyətsiz ola bilər. Və yaxud əksinə. Əgər məni sərçələri seyr etmək xoşbəxt edirsə, başqası bu xoşbəxtliyi tovuş quşunu, turacı, bülbülü seyr edərkən yaşayır. Və ya, mənim üçün dünyanın ən gözəl sözü yuvadır. Bu sözün səslənişi belə qəlbimdə istilik, doğmalıq, xoşbəxlik bəxş edəcək qədər duyğulu bir ab-hava yaradır. Bir neçə andan sonra isə başqa sözlər eşidirəm və duyğularım dəyişir. Duyduğum o bir anlıq xoşbəxtlik hissi də uçub gedir. Bu mənada xoşbəxtliyin daimi olmadığını fikirləşənlər, məncə haqlıdırlar. Sevinc də, kədər də, acı da, şirin də insan duyğularının rəngarəngliyinə xidmət edir. Həyatı da gözəl və mənalı edən məhz bu rəngarəngliklidir. Yeknəsəklik hər zaman cansıxıcı olub. Ona görə də sualınızın ikinci hissəsinə belə cavab verərdim ki, bəli, xoşbəxtəm. Çünki insana məxsus olan bütün duyğuları yaşamışam və yaşayıram. Axı insan gülməyi bacardığı kimi, ağlamağı da bacarmalıdır. Ən əsası isə Allahdan gələn hər nə varsa, şükranlıqla qəbul etməlidir.

**– Hər kəsin ömür yolunda parlaq xətlə bərabər, qara xətt də olur. Sizin ömür yolunuzda hansı xətlər üstünlük təşkil edir?**

– Doğrusu, bu haqda heç düşünməmişəm. Sualınız məni “İlham” ədəbi birliyinin fəaliyyət göstərdiyi ən qaynar çağlarına qaytardı. Bir qələm yoldaşım var idi. Uzaq rayondan gəlmişdi və indiki ADAU-nun tələbəsi idi. Gözəl şeirlər yazan həmin tələbə təhsilini başa vurub geri qayıtmaq ərəfəsində əlyazma dəftərimə öz arzularını bildirmişdi. Yarım vərəq gözəl-gözəl sözlər yazdıqdan sonra üç nöqtə qoyub: “Bunları sözgəlişi dedim, əslində sənə qərib taleyi arzulayıram, çünki əks halda yaxşı yazıçı ola bilməzsən” – yazmışdı. Qəribə də olsa, həyatımın sizin dediyiniz kimi qara xətləri ilə qarşılaşında həmin qələm yoldaşımın sözlərini xatırlayıram və ərklə ürəyimdə, – sənin qarğışına düşdüm, – deyirəm.

Aradan uzun illər keçməsinə baxmayaraq onun yazdığı şeirin bir bəndini hələ də unuda bilmirəm:

**Qərib durma, gəl nəğməsiz öt burdan,**<br>
**Bu yerlərdə kədər yatıb, oyanar.**<br>
**Bir ümidi oxladılar ortadan,**<br>
**Hər məzardan bir intizar boylanar.**

Həqiqətən də kədərin diqtəsi ilə yaranmış bir yazı məhsulu, sənət nümunəsi daha mükəmməl, daha yaddaqalan olur.

Ümumiyyətlə isə, ətrafıma, ailəmə, övladlarıma, dostlarıma, ən nəhayət o qədər də çox olmayan qələm məhsullarımın bədii keyfiyyətinə nəzər salanda düşünürəm ki, həyatımın parlaq xətləri daha çox olub.

**– Ölüm gözlə qaş arasındadır deyirlər. Bu ifadə sizə nə deyir?**

– Çox söz deyir. Müdriklərdən biri deyib ki, elə yaşa ki, sanki heç zaman ölməyəcəksən. Həm də elə yaşa ki, sanki sabah öləcəksən. İnsan həqiqətən də yaşadığı müddətdə gözəl, xeyirxah işlər görməli, qurub-yaratmalı, onsuz da ölüb gedəcəm deyə əlini işdən soyutmamalıdır. Həmçinin hər an öləcəyindən və o dünyanın sorğu-sualından qorxub günah işlərlə, pis əməllərlə məşğul olmamalıdır.

**– Həqiqət nədir və həqiqətlə doğrunun fərqini nədə görürsünüz?**

– Hər kəsin inandığı, özünə məxsus olan bir həqiqəti var. Doğru isə hamı üçün birdir, eynidir.

**– Həyatın mənasını nədə görürsünüz?**

– Gəncliyimizdə hər birimizin əzbər bildiyi və xatirə dəftərimizə köçürdüyü bir şeir vardı. Müəllifi Vəxtiyar Vahabzadə olan bu şeirin bir bəndi belə idi:

**Yaşamaq yanmaqdır, yanasan gərək,**<br>
**Həyatın mənası yalnız ondadır.**<br>
**Şam əgər yanmırsa, yaşamır demək,**<br>
**Onun da həyatı yanmağındadır.**

Hər kəs dünyaya öz fokusundan baxır və onun fərqli tərəflərini görür. Məndən ötrü isə həyatın mənası Allahın bəxş etdiyi ömrü ləyaqətlə yaşamaq və bu dünyada xoş bir iz qoymaqdır.

**– Başımızın tacı olan şəhidlərimiz haqqında xeyli əsərləriniz var. Bu əsərləri ərsəyə gətirənəcən hansı hissləri keçirirsiniz?**

– Fəxr edirəm ki, vətənimin belə mərd, igid oğulları var. Həmçinin qəmlənirəm ki, neçə sevgi, neçə arzu, neçə ömür yarımçıq qaldı... Bu günəcən yüzdən çox şəhid haqqında məqalə yazmışam. Hər birini ölümündən sonra şəkli ilə tanısam da, yazı prosevində onlarla daha yaxından tanış olur və sanki illərlə bir yerdə olduğum doğmam, tanışım, qardaşım, övladım olduqlarını hiss edirəm. Dəfələrlə onların ruhunu yanımda hiss etmişəm. Və dəfələrlə olub ki, şəhidin ən yaxın ailə üzvü ilə söhbət edib yazını hazırlamışam, sonra hazır mətni həmin adama oxuyanda təəccüb edib ki, axı bu haqda mən sizə heç nə deməmişdim, bunu hardan öyrəndiniz? İzah edə bilmirəm ki, bəzən yazı prosesində haqqında yazdığım şəhidlə aramızda sanki ruhi bir bağlılıq yaranır və qələm qeyri-iradi onun istəyinə ram olur.

Bir hadisə danışım. 90-cı illərin şəhidi olan Elman haqqında yazdığım məqalə “Haray” jurnalında dərc olunmuşdu. Yaxın qohumu gəlib jurnalı götürdü və üz qabığına baxanda təəccübləndi. Dedi ki, mən bu jurnalı yuxuda görmüşəm. Gördüm ki, Elman əmim əlində həmin bu jurnal məzarından çıxdı və mənə verib dedi ki, sizə sağolunu çatdırım.

**– Hal-hazırda üzərində işlədiyiniz əsəriniz varmı?**

– Bəli, var. “Dönəmmərəm sənə, dağlar” adlı bir povest üzərində işləyirəm. Lirik-fəlsəfi janrdadır. Bu povestdə 30 ildən sonra öz yurd-yuvasına dönmək imkanı yaransa da, geri qayıtmağa mənəvi gücü çatmayan bir insanın psixoloji durumunu göstərməyə çalışmışam.

Yeri gəlmişkən, bir məsələ haqqında da deyim ki, mənim bir xoşbəxtliyim də ondan ibarətdir ki, çalışdığım «Gəncənin səsi» qəzetinin baş redaktoru Rəfiqə Sadıqova peşəkar jurnalist olmaqla yanaşı, həm də çağdaş Azərbaycan ədəbiyyatının tanınmış yazıçılarındandır. Buna görə də tez-tez yaradıcı söhbətlər edir, mənəvi ehtiyacımızı ödəyirik. Üzərində işlədiyim povestimin əlyazmasını da ilk olaraq məhz Rəfiqə xanım oxuyub münasibətini bildirmişdi. Böyük yazıçı, ustadım Qərib Mehdinin məsləhətləri də hər zaman mənim üçün çox dəyərlidir və nə xoş ki, iş yerində tez-tez görüşüb bədii müzakirələr aparmaq imkanımız yaranır.

**– Məlumdur ki, əsərlərinizi kitab halına gətirənəcən xeyli əziyyət çəkməli olursunuz? Əziyyətiniz qiymətləndirilirmi?**

– Elə suallar var ki, onun cavabı ancaq susmaqdır. Gəlin bunu da cavabı üç nöqtə olan belə suallardan biri hesab edək.

**– Suallara münasibətiniz?**

– Zəhmət çəkmisiniz, ömür yoluma işıq tutmağa, fikirlərimə bələdçilik etməyə çalışmısınız. Bunun üçün sizə minnətdaram. Çünki hər bir əziyyətin müqabili təşəkkür və diqqətdir.

**– Maraqlı müsahibəyə görə çox sağ olun.**

– Siz də sağ olun.

**Söhbəti apardı:**<br>
**İlqar MÜZƏFFƏROĞLU**